Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 29 (1157) 12 fevral - 13 fevral 2016-cı il

# FÜZULİ - GÖZƏL DİYAR...

(əvvəli ötən saylarımızda)

**Füzuli rayonunun ən böyük yaşayış məntəqələrindən biri Böyük Bəhmənlidir. Son illər kənddə çox böyük abadlıq və quruculuq işləri görülüb. Belə ki, kəndin dörd tərəfini bir-birinə birləşdirən və müasir tələblərə cavab verən asfalt yol salınıb. Bununla yanaşı, kənddə 2 tam orta məktəb, xəstəxana, uşaq bağçası, mədəniyyət evi fəaliyyət göstərir. Və onların hər biri təmir edilib və insanların istifadəsinə verilib. Bir faktı da qeyd edək ki, kəndə iki ilə yaxındır ki, təbii qaz verilir. Əhali qış aylarında əvvəlki illərdə olduğu kimi odun tədarükü görmür və yanacaq sarıdan korluq çəkmir.**

**"... Əlbəttə, Azərbaycanda elmə, təhsilə göstərilən diqqət mütləq öz nəticəsini verəcək. Bizdə savadlılıq yüksək səviyyədədir, savadsız insan yoxdur. Bu, böyük üstünlüyümüzdür. Ancaq bu gün yeni texnologiyalar tətbiq olunur. Uşaqlar da bunu bilməlidirlər. Elmin, təhsilin inkişafı ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bizim güclü iqtisadiyyatımız, güclü siyasi iradəmiz və bu gün dövlətimizin inkişafında öz rolunu oynayan gözəl gənclərimiz var. Bizim gənclərimiz, dediyim kimi, vətənpərvər olmalıdırlar və milli ruhda tərbiyə almalıdırlar".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

### *ALLAHYAR ƏLİYEV ADINA 2 SAYLI TAM ORTA MƏKTƏB*

Bayaq dediyimiz kimi, Böyük Bəhmənlidə iki tam orta məktəb fəaliyyət göstərir. Onlardan birinə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş Allahyar Əliyevin adı verilib. Bu günün özündə də Allahyar Əliyevə çox böyük sevgi və məhəbbət var. Və həmin məktəbdə oxuyan şagirdlər onun kimi vətənpərvər və xalqını sevən gənc olmaq arzusundadırlar. Fəxrlə deyə bilərik ki, həmin məktəbdə indi çoxlu sayda vətənpərvər allahyarəliyevlər yetişir. Məktəbin direktoru Həsən Rzayev bizimlə söhbətində vurğulayır ki, cəbhə bölgəsində yaşamaq həm şərəfdi, həm də məsuliyyət. Üstəlik də burda şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq və onlara dərin savad vermək bizim pedaqoji kollektivdən çox böyük məsuliyyət tələb edir.



### *ZƏHMƏTİMİZ HƏDƏR GETMƏYİB*

Məktəbin direktoru Həsən müəllim söhbətə bir qədər də şirinlik qatır. Deyir ki, bu gün kollektivimizdə 49 nəfər müəllim işləyir və onlar 384 şagirdin təlim-tərbiyəsi ilə məşğuldurlar. Zarafat deyil, indiki uşaqlarla ünsiyyət yaratmaq, onların qəlbini ələ almaq hər bir pedaqoqdan təcrübə və səriştə tələb edir. Üstəlik də gərək müəllim daim öz üzərində çalışsın və axtarışlar aparsın. Dediklərimi hər hansı müəllim əldə edirsə, onun şagirdlər qarşısında həmişə üzü ağ olur. Belə ki, ötən il məktəbimizi bitirmiş 11 məzun müxtəlif ali məktəbin tələbəsi adını qazanıb. Bax, bu bizim ən böyük mükafatımızdır. İlqar Azər oğlu İlqarlı 659 balla Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub. Araz Şükürov, Səkinə Rzayeva, Əfsanə Bayandurova, Elyanə Səfərov, Anar Aslanov, Şahin Musayev, Zöhrə Həsənzadə, Gültac Şahbazov, Billurə Şükürova, Asər Əliyev məktəbimizin şərəfini qoruyaraq ali məktəb tələbəsi adına layiq görülüblər.

### *BAHAR MURADOVA MƏNİ VƏ İLQAR İLQARLINI QƏBUL EDİB MÜKAFATLANDIRDI*

Hər il ali məktəbə 600-dən yuxarı bal toplayan məzunlarımızı Milli Məclisin vitse-spikeri, Füzulidən millət vəkili seçilən Bahar xanım Muradova qəbul edir və onları mükafatlandırır. Bu isə birmənalı olaraq məzunlarımız arasında çox böyük mənəvi həvəs və eyni zamanda inam hissi yaradıb. Artıq iki ildir ki, Bahar xanım bu ənənəni davam etdirir. Üstəlik də Bahar Muradova rayona gələndə biz seçiciləri ilə görüşür, problemləri ilə maraqlanır və lazımi köməklik göstərir. Bahar xanım məni və 659 bal toplayan məzunumuz İlqar Azər oğlu İlqarlını qəbul etdi və mükafatlandırdı. Əlbəttə, Milli Məclisin vitse-spikerinin bu dərəcədə səmimi və sadə bir hərəkəti heç vaxt bizim yadımızdan çıxmayacaq. Əksinə, bu şagirdlərimizi ruhlandırır və istedadlı gənclərin yolu ilə getməyə sövq edir.



### *BİZ MÜƏLLİMLƏRİMİZLƏ FƏXR EDİRİK*

Yaxşı müəllimin yaxşı da şagirdi olar. Bu sözləri də Həsən Rzayev çox ürəklə deyir. Deyir ki, Füzulidə həmişə təhsilin inkişafına və tərəqqisinə böyük önəm verilib. Elə məhz buna görə də hər il bizim rayonun çoxlu sayda məzunları ali məktəblərə qəbul olurlar. Bir faktı da qeyd edim ki, təhsil şöbəsinin müdiri Ramella Məmmədova az bir müəddətdə müəyyən yeniliklər edib və pedaqoji kollektivlərə qarşı tələbkarlığı daha da artırıb. Məhz bizim məktəbin kollektivi də bu gün işlərini günün tələbləri səviyyəsində qurur, cəmiyyət və dövlət üçün vətənpərvər, savadlı insanlar yetişdirir. Bu işdə təlim-tərbiyə işləri üzrə direktor müavini Nazim Həşimov, təşkilatçı müavin Misir Mehdiyev, psixoloq Yaqut Hüseynova, uşaq birliyinin rəhbəri Eyzangül Musayeva, Hətəm Rzayev, Fəxrəddin Yusif, Gültəkin Abdullayeva, Uğur Babaşov, Məqsəd İsmayılov, Araz Həşimov, Nərgiz Əmirzadə, Aynurə Əzizli xüsusilə fərqlənirlər.

**Onu da qeyd edim ki, məktəbimizdə gənc müəllimlərə təcrübəli pedaqoqlar tərəfindən köməklik göstərilir və onlara lazımi məsləhətlər verilir. Bu isə kollektivimizdə müsbət atmosferin yaranmasına səbəb olur.**

***Faiq QİSMƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ